# Heç kəs unudulmur, heç nə yaddan çıxmır

## *DTK-nın polkovniki Xaqani Akif oğlu Bağırov kimi...*

Ulu öndərin xeyir-duasıyla DTK-ya işə qəbul edilən xoşbəxt gənclərdən biri oldu Xaqani Bağırov... Heydər Əliyev gənc Xaqanini xeyli sorğu-suala tutduqdan sonra xidmətə qəbulla bağlı əmrə qol çəkərək deyib: "Bu işin əsas xüsusiyyəti ondan ibarətdir ki, xalqın, dövlətin mənafeyi həmişə şəxsi maraqlardan üstün tutulmalıdır. Əgər bu işə var qüvvəni sərf etsən, uğur qazanacaqsan".

Bu tövsiyəni heç vaxt unutmadı Xaqani, düz 40 il Azərbaycanımızın təhlükəsizlik orqanlarında həvəslə, vicdanla çalışdı və tale qapısını tez-tez döyən yalnız uğurlar oldu...

İlk öncə 1968-ci ildə Naxçıvan MSSR-in Dövlət Təhlükəsizliyi Komitəsinə təyinat alıb. Lakin burada iki ildən çox işləməyib. Zəhmətkeşliyi, işə ciddi münasibəti, məsuliyyəti elə ilk günlərdən sözünü deyib. Xaqani Bağırov tezliklə irəli çəkilərək Bakıya, Azərbaycan SSR DTK-nın kəşfiyyat şöbəsinə təyin edilib. Moskvada və Kiyevdə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ali kurslarını bitirdikdən sonra isə yüksək ixtisaslı kəşfiyyatçı kimi Azərbaycan SSR DTK-nın kəşfiyyat və əks-kəşfiyyat sahələrində işləməyə başlayıb. Çətin və mürəkkəb əməliyyat işlərində qazandığı bilik və təcrübə köməyinə gəlib. 1991-ci ilədək dövlət təhlükəsizlik orqanlarının bütün sahələrində çalışıb. Polkovnik rütbəsi qazanıb. O, təcrübəli, peşəkar zabit kimi üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib, işinə böyük məsuliyyətlə yanaşıb... Buna görə də ən mürəkkəb işlər məhz ona tapşırılıb...

1991-ci ildə Azərbaycan Respublikası öz tarixi müstəqilliyini bərpa etdikdən sonra, ölkədə polkovnik Xaqani Bağırov kimi təcrübəli, peşəkar kadrlara böyük tələbat yaranmışdı. Müstəqil Azərbaycanın yenicə təşkil edilən təhlükəsizlik orqanlarında yeni sahələrin, istiqamətlərin yaradılmasında onun bilik və bacarığından geniş istifadə olunurdu. X.Bağırov gənc və təcrübəsiz əməkdaşlarla sıx ünsiyyət qurur, onlara bu çətin və şərəfli peşənin sirlərini öyrətməyə çalışırdı.

Polkovnik Xaqani Bağırov müstəqil respublikamızın təhlükəsizlik orqanlarında on altı il xidmət etdi. Müxtəlif vəzifələrdə çalışdı. Peşəkar əməkdaş kimi nazirliyin bu vacib sahəsində böyük işlər gördü. Təhlükəsizlik orqanlarının fəaliyyətini tənzimləyən normativ hüquqi sənədlərin hazırlanmasında da yaxından iştirak etdi. Onun yaxından iştirakı ilə ictimai-tarixi əhəmiyyət kəsb edən, eləcə də sovet rejiminin repressiya illərində xalqımızın üzləşdiyi faciələrə dair və üzərindən məxfilik qrifi götürülmüş arxiv materialları əsasında neçə-neçə sənədli filmlər, televiziya verilişləri çəkildi, elmi-tarixi araşdırmalar aparıldı, məqalələr, kitablar yazıldı.

Xaqani Bağırovun Azərbaycan təhlükəsizlik orqanlarının tarixinin araşdırılması ilə əlaqədar əldə etdiyi maraqlı və əhəmiyyətli faktlar əsasında elmi-tarixi əhəmiyyət kəsb edən neçə-neçə məqalə yazıldı, bu qəbildən xeyli sayda kitablar çap olundu. O, Azərbaycan təhlükəsizlik orqanlarının fəaliyyətindən bəhs edən çoxseriyalı sənədli filmin hazırlanmasında da yaxından iştirak edir, yaradıcı qrupdan faydalı məsləhətlərini əsirgəmirdi. Bu sahədə Xaqani müəllimin danılmaz xidmətləri oldu.

Azərbaycan təhlükəsizlik orqanlarının ayrı-ayrı dövrlərini əhatə edən muzeylərin, xüsusilə özünə əbədi rəhbər və böyük müəllim saydığı ümummilli liderin zəngin həyat və fəaliyyətini əks etdirən Şöhrət Muzeyinin yaradılmasında da Xaqani Bağırovun zəhməti əvəzsizdir. Bu gün Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasında təhsil alan kursantlar Xaqani Bağırovun hazırladığı tarix materiallarından və dərsliklərdən geniş istifadə edirlər. Onun həmmüəllifliyi ilə çap edilmiş Azərbaycan təhlükəsizlik orqanlarının qısa tarixi kitabı da böyük zəhmətin bəhrəsidir. İndi bu metodik vəsait geniş tədris edilir. Ömrünü yalnız Vətəninə, dövlətinə, xalqının təhlükəsizliyi, rahat yaşamasına həsr edən bu fədakar kəşfiyyatçı bu gün xatirələrdə yaşayır, sonsuz ehtiramla yad edilir.

**DTK-nın sədr müavini olmuş general Bahadur Hüseynov:** 1969-cu ildə ümummilli lider Heydər Əliyev məni Naxçıvan Muxtar Respublikasının DTK-na sədr təyin etdi. Bizim Heydər Əliyevlə işgüzar münasibətlərə yanaşı, möhkəm dostluq münasibətlərimiz olub. Mən Naxçıvan DTK-na gəldiyim ərəfədə Xaqani Bağırov orada əməliyyat müvəkkili işləyirdi. Mənim Xaqaninin atası Akif Bağırovla illərin sınağından çıxmış dostluğumuz olub. Xaqani də atası Akif kimi çox prinsipial, məsuliyyətli və işgüzar idi. O üzərinə düşən vəzifələri layiqincə yerinə yetirirdi. Bir əməliyyatçı kimi həmişə dəqiq informasiyalar verərdi. Bir dəfə Naxçıvanda işlədiyi dövrdə Heydər Əliyev gənc əməkdaşla maraqlandı. Mən Xaqaninin gənc kadr olmasına baxmayaraq, əməliyyat işinin təşkilində yüksək bacarıq nümayiş etdirdiyini bildirdim. Xaqani mənim ən etibar etdiyim əməkdaşlarımdan olub. O vətəninə sədaqətlə xidmət edirdi. Naxçıvanda işlədiyi müddətdə dəfələrlə mükafatlandırılıb. Daha sonralar, mən Azərbaycan DTK-na sədr müavini təyin olunduğum vaxtlarda da mərkəzi aparatda Xaqani mənim rəhbərliyim altında işləyib. Onun xətrini nəinki bir əməkdaş, həm də ləyaqətli bir insan kimi çox istəmişəm. Təhlükəsizlik orqanlarındakı xidməti uğurları bir rəis kimi məni də çox sevindirirdi. Xaqaninin vəfatı məni çox məyus etdi. Allah rəhmət eləsin!..

**DTX veteranı, polkovnik Sədyar Abbasov:** Xaqani Bağırovla ilk tanışlığımız 1970-ci ilin sentyabr ayından başlayıb. Həmin vaxt o Naxçıvan Muxtar Respublikasında Dövlət Təhlükəsizlik Komitəsinin mərkəzi aparatında işləyirdi. DTK-nın ali kurslarını bitirdikdən sonra respublika DTK sədrinin əmrinə əsasən, mən Naxçıvan MR DTK-na, Xaqani isə Bakı şəhərindəki mərkəzi aparata təyin olunduq.

Mənə Xaqaninin xidmət etdiyi sahə tapşırıldığına görə, ilk gündən onunla, demək olar ki, bir yerdə olurduq. Hətta birinci gün mehmanxanada qaldıqdan sonra, onun israrlı təkidi ilə Naxçıvan şəhərindəki ikiotaqlı mənzilinə köçdüm. Daha maraqlısı isə o idi ki, Xaqani yeni təyinat yerinə gedərkən mənzilindən, demək olar ki, heç nə götürmədi. Yaşamaq üçün lazım olan bütün avadanlıqları mənzillə birlikdə mənim istifadəm üçün qoyub getdi.

Əməliyyat təsərrüfatının təhvili ərəfəsində Xaqani ilə birlikdə müxtəlif müəssisə və obyektlərdə olur və hörmətlə qarşılanırdıq. O, Naxçıvanda qısa bir müddətdə işləməsinə baxmayaraq, rəsmi şəxslər və sadə insanlar arasında böyük nüfuz qazanmışdı. Təbii, əməliyyat fəaliyyətinin başlanğıcında yüksək insani keyfiyyətlərə malik bir insanla rastlaşmaq xidməti işimə müsbət təsirini göstərməyə bilməzdi.

Xaqani ilə yaxın əlaqələrimiz 1980-cı illərdə Bakı şəhərində mərkəzi aparatda işlədiyimiz ərəfədə də davam etdi. Həmin dövrdə DTK Əks-kəşfiyyat idarəsinin ayrı-ayrı şöbələrində mən baş əməliyyat müvəkkili, o isə bölmə rəisi vəzifəsində işləyirdi. Xaqani ilə birgə keçirdiyimiz əməliyyatlar nəticəsində xarici ölkədən gələn emissarların qeyri-qanuni fəaliyyətlərinin qarşısı alınırdı. Eyni zamanda xarici emissarların dini zəmində həyata keçirmək istədikləri pozuculuq fəaliyyətlərinin də qarşısını alırdıq. Sonralar, mən DTK-nın keçmiş Əzizbəyov və Xaçmaz rayon şöbələrinə rəhbərlik etdiyim vaxtlarda da əlaqələrimiz davam etdi. O, sadə, təvazökar, xeyirxah, qayğıkeş, haqqı nahaqqa verməyən, ən əsası isə, dövlət və cəmiyyət qarşısında məsuliyyət hiss edən şəxsiyyət, ehtiram və hörmətə layiq bir insan idi...

**DTX veteranı, polkovnik Tamilla Həşimova** da keçmiş həmkarını sonsuz sevgi və ehtiramla xatırlayır: Məni Xaqani Bağırovla DTX-nın müxtəlif istiqamətlərindəki uzun illər bilikdə fəaliyyət bağlayır. Bütün sahələrdəki fəaliyyətində onun sarsılmaz iradəsi, yüksək biliyi, tələbkarlığı və peşəkarlığı özünü göstərirdi. İşlədiyi sahədən və vəzifədən asılı olmayaraq dəqiq, məsuliyyətli, özünə və ətrafındakılara qarşı tələbkar, vicdanlı, həssas, öz əməkdaşlarına qarşı isə son dərəcə diqqətcil bir insan idi. O həmişə insanlarla yaxından maraqlanar və onların problemlərinin həll olunmasına kömək göstərməyə çalışardı. Yeni ixtisaslaşmış kadrların hazırlanmasında şəxsən özü iştirak edirdi. İşini çox sevirdi. Bir çox sənədli filmlərin, o cümlədən ümummilli lider Heydər Əliyevin həyatından bəhs edən filmin hazırlanmasında məsləhətçi kimi yaxından iştirak etmişdi. Gözəl ailə başçısı kimi hörmət bəslədiyim həmkarım Xaqani Bağırov həm də mənim ən yaxın dostum idi...



**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupunun müavini olmuş Tamara Məmmədovanın** xatirələri isə Xaqani Bağırovu elin-obanın, xalqın dərdi ilə yaşayan, onunla bir sevinib, bir gülməyi insanlıq görəvi sayan əsl vətəndaş kimi tanımağa bələdçilik edir: 1993-cü ilin əvvəllərində, Dağlıq Qarabağ ərazisində hərbi əməliyyatların şiddətləndiyi bir dövrdə, Azərbaycan ərazilərinin işğalı nəticəsində əsir və girovların azad edilməsi və itkin düşmüş vətəndaşların axtarılması işlərinin təşkili məqsədilə Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası yaradıldı. Komissiyanın işçi qrupunun rəhbəri Xaqani Bağırov, müavini isə mən təyin edildim. Beləliklə tale məni təvazökar və eyni zamanda əməliyyat işi sahəsində böyük təcrübəsi olan bu insanla qarşılaşdırdı. Komissiyanın sədri Namiq Abbasovun Xaqani Bağırov haqqında verdiyi qısa və mükəmməl xarakteristika birgə işlədiyimiz ilk gündən öz təsdiqini tapdı.

O, gözəl psixoloq, təmkinli və ən ekstremal vəziyyətlərdə soyuqqanlı olmağı bacaran bir insan idi. Onun səmimi və şəfqətli sözləri yaxınlarının axtarışı ilə məşğul olan çarəsiz insanlarda həmişə inam yaradır, ümidverici təsəlli olurdu.

Xaqani Bağırov kömək üçün ona müraciət edən bütün insanlara yardım göstərərdi. Qəlbi yaralı, niskilli soydaşlarımızı diqqətlə dinləyər, insan hüquqları sahəsində qəbul olunmuş beynəlxalq konvensiyaların pozulması faktlarını qeydə alar, bu istiqamətdə də işlər aparardı.

Beynəlxalq Qırmızı Xaç Komitəsinə qısa bir zamanda müəyyən edilmiş faktları təqdim edərək hərbi əsirlərin saxlanılma tələblərinə riayət olunması şərtlərinə əsasən dərhal azad olunmasını tələb edirdi. Beləliklə, Xaqani müəllimin bir peşəkar kimi işi düzgün qurması və Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri ilə uğurlu danışıqlar aparması əsirlikdə olan vətəndaşlarımızın qısa zamanda azad olunmasına və onlara hərtərəfli yardım edilməsinə səbəb olurdu.

Hər birimizin qəlbində onunla bağlı xoş təəssüratlar, xatirələr yaşayır. Biz Xaqanidən çox şey öyrəndik, dostluq etdiyimizə görə taleyə minnətdarıq. Onun ölümü bizim ailədə də dərin hüznlə qarşılandı. Xaqani müəllim mənim və ailəmin xatirində həmişə böyük insan, əsl ziyalı olaraq yaşayır.

Zəngin və mənalı ömür yolu keçmiş Xaqani Bağırov ömrünün 71-ci qışında bu dünyaya "Əlvida!" dedi. 2016-cı ilin soyuq yanvar günlərinin birində sevdiklərilə əbədi vidalaşdı...

DTX-nın rəhbərliyi başda olmaqla, bütün kollektiv veteran əməkdaşlarını son mənzilə yola saldı. Bu gün Bağırovlar ailəsi Xaqani Bağırovun vəfatı dönəmində onlara göstərdiyi böyük diqqət və qayğıya görə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-leytenant Mədət Quliyevə ürəkdən minnətdardır.

2016-cı il mayın 19-u isə Xaqani Bağırovun növbəti ad günüydü... Ancaq doğmaları və yaxınları ilk dəfə olaraq ad gününü onsuz keçirirdilər. Gələnlər bu işıqlı insanı xoş xatirələrlə yada salıb andılar. Və... hər kəsin, xüsusilə sevimli qızı, atasının yolunu qürur və sevgi ilə davam etdirən Nərgizin qəlbindən bu misralar bir daha keçdi: "Ölüm sevinməsin qoy, ömrünü vermir bada. El qədrini canından daha əziz bilənlər. Şirin bir xatirətək qalacaqdır dünyada. Sevərək yaşayanlar sevilərək ölənlər...".

**Esmira FUAD.**